

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 78 (23.965)

28 aprel 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvilini qəbul edib.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin ölkələrimizin və xalqlarımızın qarşılıqlı dəstəyinə, həmrəyliyinə əsaslandığını bildirib. Prezident İlham Əliyev, xüsusilə postmünaqişə dövründə Azərbaycan, Gürcüstan və Ermənistan arasında üçlü formatda qarşılıqlı fəaliyyət üçün yaxşı imkanların olduğunu bildirib və Azərbaycan tərəfinin buna hazır olduğunu qeyd edib. Dövlətimizin başçısı Gürcüstanın da bu mövqeyi bölüşdüyünü deyib, Ermənistanın da bunun regionda sabitliyin və təhlükəsizliyin bərqərar olmasının yeganə yolu olduğunu anlayacağına ümidvarlığını ifadə edib.

Gürcüstanın Baş naziri Azərbaycan Prezidentinin əlaqələrimizin inkişafına verdiyi dəstəyi Gürcüstan tərəfinin yüksək qiymətləndirdiyini bildirib.

***

Prezident İlham Əliyev həmin gün Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Muxtar respublikada yeni nasos stansiyası istifadəyə verilib





Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması, müasir hidrotexniki qurğuların tikilməsi diqqətdə saxlanılır. Torpaqların su təminatının yaxşılaşdırılması əkinçilikdə yüksək məhsuldarlığın əldə olunmasına və ərzaq təhlükəsizliyinə töhfə verir, tələbat yerli istehsal hesabına ödənilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair” Tədbirlər Planına uyğun olaraq bu sahədə işlər davam etdirilir, yeni nasos stansiyaları tikilir, torpaq sahələri əkin dövriyyəsinə qatılır.

Aprelin 27-də Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 2200 hektar torpaq sahəsini suvarma suyu ilə təmin edəcək yeni nasos stansiyası və təzyiqli boru xətti istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev məlumat vermişdir ki, su Araz çayından öz axını ilə kanal vasitəsilə suqəbuledici hovuza verilir. Nasos stansiyasına suyun verilməsi üçün 70 metr uzunluğunda sugətirici kanal tikilmiş, kanalın döşəməsi və yamacları daşla bərkidilmişdir. Hovuzun girişində təmir zamanı suyun çay ilə əlaqəsini kəsmək üçün hidravlik qapı və su ilə daxil olan tullantı və balıqları saxlamaq üçün metal qəfəs quraşdırılmışdır. Hovuzdan su nasos stansiyasına diametri 720 millimetr olan 3 boru vasitəsilə daxil olur. Nasos stansiyasında 1-i ehtiyat olmaqla hər birinin su sərfi saatda 2000 kubmetr olan 3 nasos, gücü 800 kilovat olan 3 elektrik mühərriki və nasosların hər birinin girişində siyirtmə, eyni zamanda nasosların çıxışında 25 atmosfer təzyiqə davam gətirən temperatur kompensatoru, əks-klapan və tənzimləyici siyirtmə qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ölkəmizdə, eyni zamanda muxtar respublikada kənd təsərrüfatı sahəsində mühüm işlər görülür. Torpaqların icarəyə verilməsi



və əkin dövriyyəsinə qatılması, yeni suvarma sistemlərinin qurulması vacib məsələdir. Ölkəmizdə bu istiqamətdə xüsusi layihələr həyata keçirilir. Çünki torpaqların əkilməsi bol məhsul istehsalına, yeni iş yerlərinin yaradılmasına və idxaldan asılılığın azaldılmasına xidmət edir. Bu gün dünyada gedən proseslərə nəzər saldıqda görürük ki, ölkələr bir-birinə təzyiq vasitəsi kimi ərzaq və enerji sahələrindən istifadə edir. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında hər iki sahədə görülən işlərin nəticəsidir ki, həm ərzaq məhsulları və enerji ilə etibarlı təminat həyata keçirilir, həm də bu sahələr üzrə ixrac imkanları yaranır.

Ali Məclisin Sədri demişdir: Yeni istifadəyə verilən nasos stansiyası hesabına əkin dövriyyəsinə qatılan torpaq sahələri heç vaxt əkilməyib. Bu məhsuldar torpaqların əkin dövriyyəsinə qatılması üçün nasos stansiyasının qurulmasına ehtiyac var idi. Qərar qəbul olundu və bu gün stansiya istifadəyə verilir. Bu da imkan verəcək ki, toxumçuluq təsərrüfatı üçün ayrılmış torpaq sahələri su ilə təmin olunsun. Eyni zamanda nasos stansiyasının istifadəyə verilməsi ilə yeni iş yerləri açılmışdır. Nasos stansiyası 2000 hektardan artıq ərazini suvarma suyu ilə təmin edəcəkdir ki, bu da muxtar respublikanın ərzaq təhlükəsizliyinə töhfədir. Nasos stansiyasının su debitinin artıq olması gələcəkdə ətraf ərazilərdə də yeni yeraltı şəbəkələrin qurulmasına və torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verəcəkdir. Həmçinin Araz çayı üzərində olan panton nasos stansiyasında yenidənqurma işləri başa çatandan sonra 10 min hektara yaxın torpaq su ilə təmin olunacaqdır. İstifadəyə verilən nasos stansiyası həmin layihənin bir hissəsidir. Bütün bunların görülməsi üçün mütəxəssislər lazımdır. Artıq muxtar respublikada bu sahədə mütəxəssislər yetişib. Bugünkü nasos stansiyasının qurulması, istifadəyə verilməsi, yeraltı şəbəkələrin çəkilməsi də yerli mütəxəssislər tərəfindən həyata keçirilmişdir.

Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində əməyi olanlara təşəkkür etmiş, nasos stansiyasının qurulmasında iştirak edənlərə hədiyyələr təqdim etmiş, xatirə şəkli çəkdirilmişdir.

Sonra Ali Məclisin Sədri nasos stansiyasını işə salmışdır.

Bildirilmişdir ki, suyun boru xətti ilə geri qayıdarkən yaratdığı əks-zərbə nəticəsində baş verəcək qəza zamanı nasos stansiyasının su ilə dolma təhlükəsinin qarşısını almaq üçün xətt üzərində əks-klapan, ehtiyat xətt, drenaj və artezian nasosu quraşdırılmışdır. Stansiya nasosları su ilə doldurmaq üçün vakuum sistemi ilə təmin olunmuş, nasosların iş rejiminə nəzarət üçün çıxış xətləri üzərində ölçü cihazları yerləşdirilmişdir. Stansiyanın yeraltı hissəsinə və nasos aqreqatlarına rahat giriş təmin edilmiş, pilləkən, platforma, məhəccər quraşdırılmış, iş otaqları tikilmişdir. Stansiyanın maşın zalında aqreqatların təmiri, daşınması məqsədilə 3,2 ton yükqaldırma qabiliyyəti olan elektrik talı quraşdırılmış, binanın ətrafına kilid daş döşənmiş, 0,7 hektar sahədə yaşıllıq zolağı salınmışdır. Suyun əraziyə çatdırılması üçün müxtəlif diametrli borularla, ümumilikdə, 6600 metr təzyiqli boru xətti çəkilmişdir. Boru xətti üzərində 1 paylayıcı siyirtmə, 2 suboşaldıcı və 1 havaburaxıcı qoyulmuşdur.

Nasos stansiyasının boru xətti paylayıcı siyirtmə vasitəsilə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində istifadəyə verilmiş 810 hektar qapalı suvarma şəbəkəsinin mövcud xətti ilə birləşdirilmişdir. Boru xəttinin keçdiyi ərazidə qrunt sularının səviyyəsini aşağı salmaq üçün 1000 metr açıq drenaj kanalı qazılmışdır. Stansiyadan verilən su mövcud və yeni çəkilmiş xətlərlə Böyükdüz kəndinin yuxarı hissəsinə – Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarına qədər daşınacaqdır.

Ardı 2-ci səhifədə



Bu da, öz növbəsində, "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin istifadəsinə ayrılmış 1961, Böyükdüz kənd bələdiyyəsinə aid 46 və dövlət ehtiyat fonduna aid 190 hektar olmaqla, ümumilikdə, 2200 hektar torpaq sahələrini suvarma suyu ilə təmin etməyə imkan verəcəkdir.

Nasos stansiyasının elektrik təchizatı üçün 110/10 kilovoltluq dəmir yolu yarımstansiyası və 8,8 kilometr 110 kilovoltluq elektrik verilişi xətti bərpa olunmuşdur. Nasos yarımstansiyasını qidalandırmaq üçün 1 kilometr uzunluğunda 10 kilovoltluq hava elektrik verilişi xətti çəkilmiş, qaz açarlı hücrələr, kondensator batareyaları quraşdırılmışdır. Yarımstansiyada gücü 10/6 kilovoltluq transformator quraşdırılmış, daxili sərfiyyat üçün 10/0,4 kilovoltluq transformator və mühafizə-avtomatika dövrlərini qidalandırmaq üçün isə 110 voltluq sabit cərəyan mənbəyi qoyulmuşdur.

Ali Məclisin Sədri əkinlərin aqrotexniki qaydalara uyğun həyata keçirilməsi, torpağın strukturuna uyğun bitkilərin əkilməsi, nasos stansiyalarının ətrafında bağların salınması, muxtar respublikada ehtiyac olan yerlərdə qapalı suvarma şəbəkələrinin qurulması ilə bağlı layihələrin hazırlanması barədə tapşırıqlar vermişdir.

* * *

Həmin gün Ali Məclisin Sədri Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 3200 hektar əkin sahəsini suvarma suyu ilə təmin etmək üçün Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin layihəsinə də baxmış, işlərin ilin sonuna kimi yekunlaşdırılması barədə tapşırıqlar vermişdir.



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günüdür*

## Əməyin mühafizəsi həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindəndir

***2003-cü ildə Beynəlxalq Əmək Təşkilatı tərəfindən 28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günü elan edilib. Bu günün təsis olunmasında məqsəd istehsalatda bədbəxt hadisələrin baş verməsinin qarşısının alınmasına, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına ictimai diqqətin artırılmasıdır.***

Ölkəmizdə əməyin mühafizəsi, işçilərin hüquqlarının qorunması, təhlükəsiz və sağlam iş şəraitinin yaradılması sosial siyasətin əsas istiqamətlərindən hesab olunur. Bu sahədə milli qanunvericilik bazasının formalaşdırılması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, ulu öndərin ölkəmizə rəhbərliyi dövründə əmək münasibətləri və əməyin mühafizəsi sahəsində beynəlxalq prinsiplərə uyğun normativ-hüquqi aktlar qəbul olunmuş, Beynəlxalq Əmək Təşkilatının bir sıra konvensiyaları ratifikasiya edilmiş, zəngin qanunvericilik bazası yaradılmışdır. ***"Azərbaycan dövlətinin ən qiymətli sərvəti onun insanlarıdır"***, – deyən ulu öndərin müəllifi olduğu Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ təsbit olunmuşdur. Həmçinin ölkənin bu əsas Qanununda işçilərin əmək və istirahət hüquqlarının əsasları da öz əksini tapmışdır. Bununla yanaşı, ölkəmizdə əmək münasibətlərini tənzimləyən əsas qanunvericilik akttı 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Əmək Məcəlləsidir. Məcəllədə əmək münasibətlərində olan işçilərin və işəgötürənlərin hüquq və vəzifələri, qarşılıqlı məsuliyyətləri, habelə əməyin mühafizəsini tənzimləyən norma, qayda və prinsiplər öz əksini tapmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti ölkə vətəndaşlarının səmərəli məşğulluq imkanlarının ildən-ilə artmasına şərait yaratmaqla, eyni zamanda işçilərin təhlükəsiz və sağlam əmək şəraitində çalışmasını nəzərdə tutan dövlət siyasətinin də gücləndirilməsinə imkan verir, əməyin mühafizəsi sahəsində qanunvericilik təkmilləşdirilir.

Muxtar respublikada da əməyin mühafizəsi tədbirləri diqqət mərkəzindədir. Həyata keçirilən genişmiqyaslı tikinti-abadlıq işləri, yeni istehsal və emal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətə başlaması, iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək hüquqlarının qorunması əməyin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsini şərtləndirir. Bu səbəbdən muxtar respublikada əmək şəraitinin yaxşılaşdırılması ilə yanaşı, istehsalat mədəniyyətinin yüksəldilməsi istiqamətində də ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər, tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına riayət olunması, tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirələrdə verilən tapşırıqların icrası nəticəsində ötən dövr ərzində əməyin mühafizəsi ilə bağlı uğurlu nəticələr əldə olunmuşdur. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" qeyri-formal məşğulluğun qarşısının alınması və əməyin mühafizəsi istiqamətində daha geniş tədbirlərin icrası üçün hərtərəfli şərait yaratmışdır. Hazırda muxtar respublikada işçilərin həyatı və sağlamlığına təhlükə yarada biləcək hadisələrin qarşısının alınması üçün profilaktik tədbirlər görülür, tikinti aparılan obyektlərdə işçilər üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlər hazırlanır, onlar peşələrinə uyğun xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin edilirlər.

Əməyin mühafizəsi istiqamətində nəzarət və maarifləndirmə işi paralel olaraq davam etdirilir. Görülən tədbirlər nəticəsində əməyin mühafizəsi qaydalarının pozulmasına görə inzibati xəta hallarında, həmçinin istehsalatda baş vermiş bədbəxt hadisələrin sayında ötən illərlə müqayisədə azalma müşahidə olunur. Cari ilin birinci rübündə də bu istiqamətdə tədbirlər davam etdirilmiş, əməyin mühafizəsinin təşkili ilə bağlı müvafiq baxışlar keçirilmiş, fərdi mühafizə vasitələrindən istifadə etməyən işçilər iş sahəsindən uzaqlaşdırılmış və ya fərdi mühafizə vasitələri ilə yerində təmin edilmişdir. Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanmasına nəzarət məqsədilə monitorinqlər aparılmış, aparılan nəzarət zamanı əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb edilən işçilərə görə işəgötürənlərə xəbərdarlıq edilərək qanunvericiliyin tələbləri izah olunmuşdur. Eyni zamanda ötən dövr ərzində muxtar respublikada müasir informasiya-kommunikasiya vasitələrinin imkanlarından istifadə edilərək işçilərin əmək hüquqları ilə bağlı bir sıra məsələlər elektronlaşdırılmış, Naxçıvan Muxtar Respublikasında "Əmək Müqavilələri Bildirişi üzrə Elektron İnformasiya Sistemi"nin fəaliyyəti təkmilləşdirilmişdir.

Görülən bu işlərlə yanaşı, əmək qanunvericiliyinin tətbiqinə dair maarifləndirici tədbirlər də mütəmadi olaraq davam etdirilir. Əməyin mühafizəsini daha geniş şəkildə təbliğ etmək məqsədilə "Əməyin mühafizəsi" adlı elektron jurnal rübdə bir dəfə olmaqla Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin *"sosial.nmr.az"* internet səhifəsinə yerləşdirilir. Əmək münasibətlərinin elektron informasiya sistemi vasitəsilə rəsmiləşdirilməsinə dair seminarlar, həmçinin əməyin mühafizəsi norma və qaydalarına əməl edilməsinə dair işçi heyətlə yerlərdə görüşlərin keçirilməsi də cari il ərzində davam etdirilir. Həmçinin *"255"* nömrəli qaynar xətt vasitəsilə daxil olan müraciətlər qanunamüvafiq olaraq cavablandırılır.

Əməyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə yüksək diqqət və qayğını özündə ehtiva edir. Əməyin mühafizəsinin təşkili muxtar respublikamızda bundan sonra da xüsusi diqqət yetirilən vacib məsələlərdən biri olacaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## "Naxçıvan Muxtar Respublikasında sənayenin davamlı inkişafında innovasiyaların rolu" mövzusunda respublika elmi konfransı təşkil olunub

Naxçıvan Dövlət Universitetində keçirilən konfransı açıq elan edən ali təhsil ocağının rektoru Elbrus İsayev 2022-ci ilin muxtar respublikada "Sənaye ili" elan olunmasının əhəmiyyətindən bəhs edib. Vurğulanıb ki, muxtar respublikanın əldə etdiyi sosial-iqtisadi uğurları həm də ölkəmizin məqsədyönlü regional inkişafı və davamlı milli iqtisadi quruculuq prosesləri fonunda strateji əhəmiyyətli göstərici olaraq dəyərləndirmək olar. Diqqətə çatdırılıb ki, hazırkı mərhələdə ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edən amillərdəndir ki, universitet ərazisində yaradılan Texnopark layihəsi buna bariz nümunədir.



İqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov "Naxçıvan Muxtar Respublikasında sənayenin davamlı inkişafı və innovasiya fəaliyyət subyektlərinin formalaşması" mövzusunda çıxış edib. Qeyd olunub ki, iqtisadiyyatın hərtərəfli inkişafını təmin etmək, yüksək texnologiyalar əsasında sənayenin davamlı inkişafına və şaxələndirilməsinə nail olmaq iqtisadi siyasətin əsas məqsədlərindən biridir. Son illər müasir dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini və innovativ istehsalın inkişaf etdirilməsini daha da sürətləndirib.

Konfransa onlayn qoşulan UNEC-in iqtisad üzrə elmlər doktoru, professor Rəsul Balayev davamlı inkişafa təsir edən amil və şərtlər və rəqəmsal iqtisadiyyat haqqında danışıb. Rəqəmsal iqtisadiyyatın qiymətləndirilmə meyarları, indikatorları və strukturu haqqında danışan professor Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı üçün görülən işlərin mühüm müsbət nəticələrini və əsas indikator olaraq tranzaksiya xərclərini şərh edib, rəqəmsal mühitdə rəqabət və tənzimləmə məsələlərinə toxunub.

Sonra iqtisad üzrə fəlsəfə doktoru, dosent Əli Cabbarovun "Naxçıvan Muxtar Respublikasında turizm sənayesinin inkişafında komfort standartlarının tətbiqi" mövzusunda çıxışı dinlənilib. Qeyd edilib ki, bu sahədə tətbiq edilən standartlaşma müəyyən olunan norma, qaydalar əsasında göstərilən turizm və rekreasiya servislərinin, həyata keçirilən işlərin turistlərin sağlamlığına və ətraf ekoloji mühitə göstərdiyi təhlükəsizliyi təmin etmək məqsədi daşıyır.

Konfrans bölmə iclasları ilə davam edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Komandir hazırlığı toplantısı keçirilib

*Naxçıvan Qarnizonu Qoşunlarında komandir heyətinin döyüş vərdişlərinin artırılması, nəzəri və praktik biliklərinin təkmilləşdirilməsi məqsədilə müxtəlif kateqoriyadan olan zabitlərlə təlim, məşğələ və toplantılar keçirilir.*



"Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən toplantıda bölük, batareya komandirləri və müavinləri iştirak edib.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçilən dərslər zamanı "Hərbi qulluqçuların hüquqi məsuliyyəti", "Bölmələrdə hərbi intizamın möhkəmləndirilməsi və mənəvi-psixoloji vəziyyətin daim yüksək səviyyədə saxlanılması", "Müasir müharibələrdə informasiya qarşıdurması" və digər mövzularda mühazirələr oxunub.

Nəzəri dərslərdə "Düşmənin hava hücum vasitələrinin qarşısının alınması", "Artilleriya bölmələri tərəfindən atəş vasitələrindən düzgün istifadə etməklə tapşırıqların vaxtında və dəqiq icra olunması", "Motoatıcı bölmələrinin müdafiə rayonunu tutması", "Yüksəkliklərə hücumun təşkili və aparılması" mövzuları üzrə 44 günlük Vətən müharibəsində qazanılan təcrübələr komandir heyətinə çatdırılıb.

Toplantının yekununda zabitlərə bölmələrin idarə olunması və döyüş hazırlığının yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

**Kənan CƏLİLOV**

## Təhsil televiziyası və radiosunun yeni internet saytının və studiyasının təqdimatı olub

*Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Televiziya və Radio Verilişləri Redaksiyasında bu münasibətlə tədbir keçirilmişdir.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək bildirmişdir ki, bu gün muxtar respublikanın təhsil televiziyası və radiosunun internet saytının və yeni studiyasının təqdimatı keçirilir. Muxtar respublikanın kütləvi informasiya vasitələri müasir maddi-texniki bazaya, o cümlədən yayım və çap avadanlıqlarına malikdir. İlk dəfə ölkəmizdə rəqəmsal və yüksəkkeyfiyyətli yayıma muxtar respublikada keçilməsi, IP televiziyanın tətbiqi, informasiya agentliyinin yaradılması, media orqanlarının internet saytlarının fəaliyyətə başlaması, bütün yaşayış məntəqələrində televiziya yayımının təşkil olunması və sürətli internetə çıxış imkanının yaradılması informasiya-məlumatlandırma işinin günün tələbləri səviyyəsində qurulmasına şərait yaratmışdır. Həmçinin Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisasının açılması, həmin ixtisasın media orqanlarına hamiliyə verilməsi bu sahədə kadr hazırlığı işinə mühüm töhfə vermişdir.

Bildirilmişdir ki, Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə 2020-ci ilin 18 dekabrından etibarən Televiziya və Radio Verilişləri Redaksiyası Təhsil Nazirliyinin tabeliyinə verilmiş, muxtar respublikada ilk dəfə təhsil televiziyası və radiosu fəaliyyətə başlamışdır. Kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi sahəsində görülən işlər teleradionu da əhatə etmişdir. Ötən dövrdə Televiziya və Radio Verilişləri Redaksiyasının fəaliyyəti daim diqqətdə saxlanılmış, redaksiyanın yubileyləri qeyd olunmuş, əməkdaşlar təltif edilmiş, əməkhaqları artırılmışdır. Bu gün yeni internet saytının və studiyanın istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.



Diqqətə çatdırılmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fəaliyyətlə bağlı müəyyənləşdirdiyi vəzifələrin icrası təhsil teleradionun kollektivi tərəfindən bundan sonra da diqqət mərkəzində saxlanılmalıdır.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bu, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının növbəti bariz nümunəsi olmaqla təhsilin informasiyalaşdırılmasında yeni bir mərhələnin başlanğıcı olmuşdur. 2021-ci il yanvarın 1-dən etibarən "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosu təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımını həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini davam etdirir və muxtar respublikanın təhsil müəssisələri ilə qarşılıqlı fəaliyyət göstərir. Ötən dövrdə redaksiya tərəfindən 800-dən artıq videomaterial hazırlanaraq yayımı təşkil olunmuşdur.

Qeyd olunmuşdur ki, Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuşdur. 2021-ci ilin may ayından redaksiyanın efir vaxtı və fəaliyyətinin gücləndirilməsi məqsədilə ştat sayı artırılaraq 24-ə çatdırılmışdır. Sədərək və Duzdağ Radio-Televiziya Ötürücü stansiyalarının müasir standartlara cavab verən avtomatik köklənmə sistemi ilə təchiz olunması isə sərhədyanı ərazilərdə də "Naxçıvanın səsi" radiosunun daha keyfiyyətlə yayımlanmasını təmin etmişdir. Həmçinin redaksiyanın maddi-texniki bazasının gücləndirilməsi də diqqətdə saxlanılmış, redaksiyaya müasir montaj kompüterləri, kameralar, mikrofonlar olmaqla, ümumilikdə, 17 adda 37 yeni televiziya avadanlığı alınmışdır. "Kanal 35" televiziyasının yenidən qurulan çəkiliş studiyası da müasir dizaynda hazırlanmış, artıq burada teledərslərin də hazırlanmasına başlanılmışdır. Redaksiyanın yeni *kanal35.az* internet saytı və onun mobil tətbiqi də hazırlanmışdır. Sayt ümumi dizaynı, məzmunu, istifadəçi rahatlığı, texniki imkanları baxımından müasir standartlara tam cavab verir.

Saytın istifadəyə verilməsi ilə televiziya və radionun tamaşaçı və dinləyiciləri veriliş və proqramlar haqqında məlumatları daha operativ şəkildə əldə edə biləcəklər. Rəhman Məmmədov yaradılan şəraitə görə redaksiyanın kollektivi və Təhsil Nazirliyi adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev, "Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova çıxış edərək yeni studiyanın və internet saytının istifadəyə verilməsi ilə kollektivin yaradıcılıq imkanlarının genişlənəcəyini, muxtar respublika jurnalistikasının inkişafına öz töhfəsini verəcəyini bildirmiş, bunu Ali Məclis Sədrinin medianın və təhsilin inkişafına qayğısı kimi dəyərləndirmişlər.



Sonra *kanal35.az* saytının təqdimatı olmuşdur. Təqdimat zamanı Televiziya və Radio Verilişləri Redaksiyasının baş redaktoru Ramal Məmişov məlumat vermişdir ki, sayt radio və televiziya olmaqla, 1 əsas və 2 yan bölmə olaraq 56 altbölmədən ibarətdir. Əsas menyuda "Haqqımızda", "Təhsil", "Verilişlər", "Filmlər", "Proqram" bölmələri yerləşdirilmişdir. Saytın əsas səhifəsində müasir formada slayder bölməsi hazırlanmışdır. Həmin bölmə verilişlərin təqdimatı barədə qısa informasiyaları əks etdirir. Əsas səhifədə "Canlı dinlə" və "Canlı izlə" bölmələri mövcuddur. "Canlı dinlə" bölməsinə klikləməklə birbaşa "Naxçıvanın səsi" radiosunun səhifəsinə keçid edərək radionun efir studiyasını canlı izləmək və radioproqramları dinləmək imkanı yaradılmışdır. "Təhsil" bölməsində 5 altqrupda təhsil pillələrinə uyğun olaraq teledərslər yerləşdirilmişdir. "Təhsildə bu gün" altbölməsində isə gün ərzində təhsillə bağlı materiallar operativ olaraq yenilənir. Saytın üstün cəhətlərindən biri də "Xəbər lenti" bölümündə ölkədə, muxtar respublikada, eləcə də dünyada baş verən operativ və mühüm xəbərlərin yer almasıdır. Sayt davamlı olaraq foto və videoxəbərlərlə zənginləşdirilir. Həmçinin yeni saytın mobil telefonlar üçün interfeysi də müasir dizaynda hazırlanaraq bütün növ əməliyyat sistemləri və brauzerlərə uyğunlaşdırılmışdır. Sayt "SSL" təhlükəsizlik sertifkatına sahibdir və "firewall" təhlükəsizlik sistemi ilə qorunur.

Televiziya və Radio Verilişləri Redaksiyasının baş redaktoru çıxışının sonunda yaradılan müasir şəraitə, göstərilən dövlət qayğısına görə muxtar respublika rəhbərinə minnətdarlıq etmiş, redaksiya kollektivinin tədrisyönlü televiziya və radio kimi qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün əzmkarlıq və səylə çalışacağını vurğulamışdır.

"Kanal 35" televiziyasının yenidən qurulan çəkiliş studiyasına baxış zamanı məlumat verilmişdir ki, müasir dizaynda hazırlanan çəkiliş studiyası yeni veriliş və proqramların hazırlanmasına imkan yaradır. İstifadəyə verilən yeni studiyada veriliş və proqramlarla bərabər, teledərslərin də hazırlanması nəzərdə tutulur.

**"Şərq qapısı"**

## Özünüməşğulluq proqramı çərçivəsində növbəti aktivlər təqdim edilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası məqsədilə cari ildən sözügedən proqramın əhatə dairəsi daha da genişləndirilib, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Banklar Assosiasiyası arasında bağlanan memorandum çərçivəsində sosial qayğıya ehtiyacı olan 15 ailə müvafiq aktivlərlə təmin olunub.

Aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Nazir muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev isə çıxışında bu sahədə görülmüş işlərdən və qarşıya qoyulan vəzifələrdən bəhs edib. Qeyd olunub ki, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair imzalanmış memoranduma əsasən muxtar respublikanın bank sektoru da sosial layihələrin reallaşdırılmasında iştirak etmək imkanı əldə edib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin sektor müdiri Səbuhi Salahov isə ötən dövr ərzində proqramın icrası çərçivəsində əldə olunan nəticələrdən danışıb.

Sonra yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Məktəblilərin tibbi müayinələri aparılıb



Muxtar respublika ərazisində IX-XI sinif şagirdlərinin profilaktik flüoroqrafik müayinələri davam edir. Bu tədbirin Kəngərli rayonunda da mütəşəkkil keçirilməsi üçün kənd məktəblərində müayinələrə cəlb olunacaq uşaqların siyahıları tərtib olunub. Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən aparılan növbəti profilaktik flüoroqrafik müayinələr rayonun Xok kənd məktəbini əhatə edib.

Müayinələr may ayının sonunacan davam edəcək.

* * *



Naxçıvan Muxtar Respublika Xəstəxanasının 20 həkim və texniki işçidən ibarət heyəti Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbində humanitar tibbi aksiya keçirib. Ambulator müayinələr zamanı məktəbin yataqxanasında yaşayan şagirdlər müxtəlif tibbi müayinələrdən keçiblər. Xəstəlikləri aşkar olunanlara müalicə və eynəklər yazılıb, həkim məsləhəti verilib. Bir şagirdin cərrahi müdaxiləyə ehtiyacı olduğundan Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət edilib. Aksiya çərçivəsində alınmış ərzaq məhsulları məktəbin yeməkxanasına, ilkin tibbi yardım üçün ləvazimat, dərman və sarğı materialları isə tibb məntəqəsinə təhvil verilib. Məktəb yataqxanasında yaşayan 43 şagird gündəlik istehlak məhsulları və geyim dəstləri ilə təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Müşavirədən irəli gələn vəzifələrin icrası diqqət mərkəzindədir

*Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə aid dövlət qurumlarının qarşısında konkret vəzifələr qoyulub.*

Digər dövlət qurumları ilə yanaşı, rayon İcra hakimiyyətləri də ərazilərdə dezinfeksiya, epizootiya, yaşıllaşdırma, abadlıq tədbirlərinin aparılması, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili və digər tapşırıqların yerinə yetirilməsini diqqət mərkəzində saxlayıblar. Verilmiş tapşırıqlara uyğun olaraq Sədərək Rayon İcra Hakimiyyəti tərəfindən də tədbirlər planı hazırlanıb və mart ayı ərzində bir sıra işlər görülüb.

Tədbirlər planına uyğun olaraq qrip və kəskin respirator virusların yayılmasının alınması məqsədilə rayonun ümumtəhsil məktəblərində, uşaq bağçalarında, ictimai yaşayış binalarında, Sədərək kəndindəki bazar kompleksində, eləcə də məscid və mərasim evlərində mərhələli şəkildə dezinfeksiya işləri aparılıb.



Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin, Gigiyena və Epidemiologiya Şöbəsinin və Baytarlıq İdarəsinin əməkdaşları tərəfindən qrafik əsasında rayonun Heydərabad qəsəbəsinin, Dəmirçi və Sədərək kəndlərinin avtomobil yolları və piyada səkiləri dezinfeksiya olunub, dərmanlama işləri aparılıb. Rayonun idarə, müəssisə və təşkilatlarının inzibati binaları, yaşayış binalarının girişi və ətrafı, yanacaqdoldurma məntəqəsi, ticarət mərkəzləri, istirahət parkları, musiqi, tam orta məktəblər xüsusi məhlulla dezinfeksiya edilib.

Verilən tapşırıqlara uyğun olaraq yaz-tarla işləri çərçivəsində də rayonda yaşıllıq zolaqlarının genişləndirilməsinə də başlanılıb. Belə ki, hesabat dövrü ərzində Sədərək rayonunda 2410 qarışıq meyvə tingi, 430 meşə ağacı, 1300 badam olmaqla, ümumilikdə, 4140 ağac, 2220 üzüm tənəyi və 6750 dekorativ bəzək bitkisi əkilib.

Müşavirədə şəhər və rayon mərkəzlərində bayramqabağı kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkil olunması diqqətə çatdırılıb. Verilən tapşırıqlara uyğun olaraq martın 18-dən 20-nə kimi Sədərək kəndində bazar kompleksində bayram yarmarkası keçirilib.

Rayon Baytarlıq İdarəsi epizootiya tədbirlərini davam etdirib, profilaktik peyvəndləmə və dezinfeksiya işləri görülüb. Həmçinin mövsümlə bağlı təsərrüfatlara baxış keçirilib və təsərrüfat sahiblərinə zootexniki qaydalar izah edilib, baytarlıq məntəqələri və apteklər dərman preparatları ilə təmin olunub.

Mart ayı ərzində idarə, müəssisə və tabe təşkilatların əməkdaşları rayonun qəsəbə və kəndlərində abadlıq işləri aparıb, yol kənarları, ətraf ərazilər tullantılardan təmizlənib, qəbiristanlıqlardakı yaşıllıqlara mövsümə uyğun qulluq edilib, ərazidə səliqə-sahman yaradılıb, rayon ərazisindəki taxıl sahələri də gübrələnib, meliorator tərəfindən hidrotexniki qurğulara baxış keçirilib, kanal və arxlar, kollektor və drenaj şəbəkələri lildən təmizlənib.

**Gülnarə HÜSEYNOVA**

*Həftəsonu şəhərin səsli-küylü ab-havasından uzaqlaşmaq və yazın ətrini elə təbiətin qoynundan almaq üçün üz tuturam dağı, düzü can dərmanı sayılan bitkilərlə zəngin olan Şahbuz rayonuna. Yolumuz Şahbuz rayonunun Ağbulaq kəndinədir. Son illər ərzində aparılan dövlət qayğısı ilə turistik bir diyara çevrilən Ağbulaq kəndinin adı gələndə çoxumuz buranı eyniadlı istirahət mərkəzi ilə xatırlayırıq.*

*Yurdumuzun nemətləri*

## Dağlarımızın yaz töhfəsi – süfrələrimizin bəzəyi

Bu gün ən ucqar kəndlərimizdə belə, şəhərdən fərqlənməyən infrastruktur yaradılsa da, kənd sakinləri torpaqdan əllərini üzmürlər. Yolboyu seyr etdiyimiz ağacların çiçək açması, zəmilərin artıq yaşıl örpəyə bürünməsi insanı valeh edir. İlin bu vədəsində işi-gücü, necə deyərlər, başından aşan kənd sakinləri səhərin erkən saatlarından sahəyə çıxır, əkin-biçin üçün ilk hazırlıqlarını görürlər. Lakin bu qədər işin arasında bu günlərin ən ləziz, faydalı nemətləri sayılan - cacıq, qazayağı, çiriş, şomu, yarpız, quşəppəyi yığmağa da mütləq zaman ayırırlar. Elə Ağbulaq kənd sakini Zəringül xala kimi. Əvvəlki kənd haqqında yazıları hazırlayarkən tanış olduğum Zəringül xala hələ qış aylarındakı görüşümüz zamanı yazda onunla birlikdə təbiətin bizə bəxş etdiyi bit-



kilərlə tanış olmaq üçün gələcəyimizin sözünü tutub elə onun ünvanına yollanıram. Hal-əhval tutduqdan sonra çox gecikmədən birlikdə sadaladığımız bitkilərlə oxucularımızı tanış etmək üçün kəndin dağlarına üz tuturuq.

Yolboyu təbiətin səxavətindən söhbət açan Zəringül xala deyir ki, Uca Yaradan bu diyarın insanlarına ruzilərini özlərindən əvvəl verib. Bu yurda elə səxavətlə min bir nazneməti bəxş edib ki, yığıb istifadə etməklə bitmir, tükənmir. Bizə düşən isə onların qədrini bilməkdir, yığanda da elə yığmalıyıq ki, bar-bərəkətimiz tükənməsin, bu gözəl nemətlər hər zaman süfrələrimizin bəzəyi, canımızın sağlamlığı olsun.

Hələ qədimdən bərəkətli torpaqlarımızda bitən vitamin və minerallarla zəngin olan bu bitkilərdən müalicə vasitəsi kimi də istifadə etmişik, cürbəcür yeməklər də hazırlamışıq. Erkən yazda təbiətin qoynundan toplanan müxtəlif növ bitkilər həm də kənd adamının qazanc mənbəyinə çevrilib. Elə ki yaz gəldi, şimşək çaxıb təbiətə halallıq verdi, kəndimizin qız-gəlinləri ilə birlikdə üz tuturuq yurdumuzun dağlarına, düzlərinə, hər biri min bir dərdin dərmanı olan bitkilərdən toplamağa. Sübhün saf, təmiz havasında təbiətin qoynunda olmağın özü sağlamlığa çox xeyirlidir.

Bir xeyli məsafə qət etdikdən sonra evdən hazırlıqlı gələn Zəringül xala önlüyündən pendir və lavaşı çıxararaq bir az dincələk deyir. Pencər yığa-yığa təmiz havada pendirlə, qaymaqla tutulan dürməyin ləzzətini dünyanın heç bir məşhur restoranında tapmaq olmaz.

Zəringül xala deyir ki, kəndimizdə bitən bitkilərdən təkcə yaz aylarında yox, ilin hər fəslində yeməklər hazırlayıram. Yazda onları təzə-təzə toplayıb, günaşırı bişirirəm. Cacıq və qazayağının bişirilmə qaydası demək, olar ki, eynidir. Əvvəlcə yığılan göyərti yaxşıca təmizlənib, yuyulur, sonra az suda bişirilir. Suyunu süzdükdən sonra əvvəlcədən qızartdığımız soğanla birlikdə qovurulur. Üzərinə çox vaxt yumurta da vurulur. Onu da deyim ki, Naxçıvan qovurması qış aylarında adla deyildiyi kimi, yaz aylarında da bu cür göyərtilərə qatıldıqda daha gözəl dad verir. Əsl evdar xanımlar qışda yaz üçün qovurma saxlayırlar. Bu bitkilərin bəziləri də var ki, onları qurudub qışa da saxlayıram. Cacıq, çiriş, qazayağını isə yaxşıca yuyub azca qaynatdıqdan sonra süzüb, sıxıram. Soyuducdan sonra kiçik torbalara yığıb dondurucuda saxlayıram. Bundan başqa, cacığı təmizləyib yaxşıca yuduqdan sonra şüşə balona yığır, üstünə qaynar su, hər litrə bir xörək qaşığı duz əlavə edib, 10 dəqiqə qaynadıb ağzını qapaqla bağlayıram. Bunu sərin yerdə saxlamaq lazımdır. Müsahibim qış süfrələrinin ləziz dadı çaşır və baldırğan turşusunun hazırlanma qaydasından da danışır:

– Çaşırdan turşu tutmaq üçün onu çeşidləyir, yəni körpə zoğları ayırırıq. Çünki körpə çaşırla nisbətən qalınları bir yerdə qaynatmaq olmaz, əzilər və ya çiy qalar. Qazanda su qaynadır, çaşırı az-az həmin suya tökür, pörtlədir, sonra isti sudan çıxarıb pendir suyu olduqda ona, olmasa, ayran çalıb içərisinə tökürük. Pendir suyu, ayran çaşırın rəngini ağardır. Bir neçə saat orada qaldıqdan sonra süzür, yaxşıca yuyuruq. Balonlara yığıb hər kiloqramına bir qaşıq duz, su töküb 10 dəqiqə qaynadıb, üç litrlik balona bir xörək qaşığı sirkə əlavə edib bağlayırıq. Baldırğanı da çeşidləyib, 5 dəqiqə qaynadıb soyuq suya tökür, bir neçə saat saxlayıb, sonra eyni qaydada balonlara yığıb bağlayırıq. Tutmalara tökülən duz iri dənəli olsa, daha yaxşıdır.

Qırxbuğum bitkisi haqqında da söhbət açan Zəringül xala deyir:

– Bitki çiy və bişirilmiş halda istifadə edilir. Ondan dovğa, buğlama, aş, kətə, salatlar hazırlanır. Qırxbuğumun düyü ilə bişirilmiş aşı sarımsaqlı qatıqla çox dadlı olur. Bu bitki aprel-may aylarında yığılıb qurudulur və qış üçün tədarük edilir. Qış aylarında ondan umac, səbzi (ət ilə qızartma) bişirilir. Qurudulub un halına salınmış kütləsindən sıyıq hazırlanmasında istifadə olunur. Qırxbuğumlu aş bişirmək üçün onu kiçik hissələrə bölür, düyünü süzür, sonra qazanın dibinə qazmaq qoyur, bir qat düyü, bir qat qırxbuğum yığılır, üzərinə yağ, zəfəran əlavə edilib dəmə qoyulur. Qırxbuğum dərman kimi də istifadə olunur. Bunun üçün bitki çiçəkləyən dövrdə toplanıb, qurudulur. Xalq təbabətində ondan hazırlanmış dəmləmə və cövhərlər mədə-bağırsaq xəstəliklərinin müalicəsində, ağrıkəsici və iltihabgötürücü vasitə kimi istifadə edilir. Yarpaqlardan çıxıq və sınıqlara, çibantipli yaralara təpitmə qoyulur.

Zəringül xala min bir dərdin dərmanı olan, uşqun haqqında deyir ki, bitkinin yığılma dövrü, əsasən, aprel ayının 20-dən may ayının sonunadəkdir. O, cəmi 25-30 gün ərzində yeyilməli olur. Həmin vaxt keçdikdən sonra yeyilən hissəsi – özəyi bərkisə də, yayın ortalarına kimi onun həm çiçəyindən, həm də ətrafında olan yarpaqlarından istifadə etmək olur. Mineral və vitaminlərlə zəngin olan uşqundan şəkər, xərçəng, ürək xəstəliklərində, həzm prosesinin yaxşılaşdırılmasında geniş istifadə olunur. Daha çox susuzluğu yatıran vasitə kimi yeyilir. Şəkər xəstəliyində yaranan susuzluğun qarşısını alır. Uşqunun yanlarından çıxan hissələrini onun özəyi kimi satanlar da olur, amma onun yeyilməli yeri yarpaqların ortasından çıxan özəyidir. Uşqun banan kimi soyulub yeyildiyindən ona Anadoluda dağ bananı deyirlər. Uşqun dağlarda bitən ən böyük yarpaqlara malik bitkidir. Dadı turşməzə və bir qədər də acıdır. Yığılma vaxtı bitdikdən sonra özəklər daha da böyüyür, azacıq sarı və qızılı rəngə çalan balaca çiçəklər açır. Həmin vaxt insana elə gəlir ki, sanki dağlara qar yağıb. Elə ki çiçəklərin xoş ətri dağı, dərəni, yamacları bürüdü, onu yığaraq gün düşməyən yerdə qurudurlar.



Müsahibim onu da bildirir ki, bu şəfalı bitkidən qışda da istifadə etmək üçün turşu və mürəbbə hazırlayırlar. Çaşır, baldırğan kimi tutulan bu turşunun fərqi bircə ondadır ki, uşqunun qabığı təmizlənir, isti suda pörtlədilmir, çiy şəkildə duza qoyulur. Bir gün iri ləyəndə duza yatırıldıqdan sonra lay-lay bankaya yığılır, üzərinə qaynadılıb soyudulmuş duzlu su tökülür.

Bu əvəzsiz bitkinin mürəbbəsini də hazırladığını deyən müsahibim bildirir ki, mürəbbə üçün isə kövrək özəklər qabığı soyularaq balaca-balaca doğranır. 1 kiloqram uşqun üçün, təxminən, 1,5 kiloqram şəkər tozu götürülür, 3-5 stəkan suda qarışdırılaraq şirə hazırlanır. Qaynayan şirəyə uşqun əlavə edilir və bir gün şirə çəksin deyə, hazırlanan şirədə qalır. Səhəri gün ərik mürəbbəsində olduğu kimi, qaynadılaraq bişirilir. Mürəbbədən, əsasən, ağır soyuqdəymələr zamanı istifadə edilir. Adətən, mürəbbə ilə çay içəndə insan tez-tez susuzlayır. Amma uşqun mürəbbəsi tam əksinə, susuzluğu azaldır.

Sadaladığım məhsulları istər mövsümündə, istərsə də qış aylarında yaradılan şəraitdən istifadə edərək kənd təsərrüfatı yarmarkalarına satışa da çıxaranlar var. Bu, bir növ, şəhərdə yaşayan, bu cür nemətlərə əli çatmayanların işini asanlaşdırmaq üçün faydalı olsa da, kənd sakinləri də satdığı məhsuldan qazanc əldə edirlər.

Anam hər zaman deyərdi ki, bu torpaq Allahın bizlərə bəxş etdiyi ehsandır. Bu nemətləri Tanrı torpağımıza bəxş edib. Əcdadlarımız onlardan yüzillərboyu həm dərman vasitəsi, həm də qida kimi istifadə ediblər. Biz də bu torpaqda boy göstərən yüzlərlə bitkidən faydalanmışıq, onların kökünün kəsilməyinə imkan verməmişik. Əmanət bilmişik onları. Siz də elə bilin, yararlanın, amma bunu elə edin ki, onların kökü kəsilməsin. Mən də onun bu sözlərinə əməl etməyi həmişə bitki toplayanlara məsləhət görürəm. Deyirəm ki, bitkilərin yığılma qaydasını düzgün yerinə yetirin, qoy onların kökü kəsilməsin. Axı bu dağlarda bitən bitkilər elə zamanlar olub ki, elimizin insanlarını aclıqdan qoruyub. İnsanlara şəfa verib. Şükür Allaha, bu gün yurdumuzda sülh və əmin-amanlıqdı. Hər tərəf, dükan, bazar cürbəcür nemətlərlə dolub daşır. Amma mən deyərdim ki, ilin bu vaxtında bir boşqab qovurmalı cacıq bir şiş kababdan daha dadlı gəlir insana.

*Zəringül xala ilə söhbətimiz bizə zamanın necə keçdiyini unutdurur. Yurdumuzun şəfalı bitkilərini toplayaraq tanıyıb bilmədiyimiz bəzi bitkiləri də elə müsahibimdən öyrənərkən xeyli məsafə də qət etmişik. Artıq geri qayıtmağın vaxtıdır. Gəldiyimiz qənaət isə budur ki, hər qarışı xəzinə olan torpaqlarımızın, o torpaqların yetirdiyi, bitirdiyi nemətlərin qədrini bilməli, onlardan lazımınca istifadə edib, gələcək nəsillərə də elə bu xəzinəni əmanət etməliyik.*

✍ **Telli MƏMMƏDOVA**

## Naxçıvan Dövlət Universiteti
### *2022-2023-cü tədris ili üçün Hərbi tibb ixtisasına tələbə qəbulu elan edir*

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Hərbi tibb ixtisası üzrə tədris əyani formada Azərbaycan dilində aparılır. Təhsil müddəti 6 ildir.

Hərbi tibb ixtisasına cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, sentyabr ayının 15-dək 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşdan 23 yaşadək kişi cinsli hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və hərbi vəzifəlilər qəbul edilir.

Sənədlərin qəbulu:

Hərbi tibb ixtisasına qəbul olmaq istəyən namizədlər 1 aprel 2022-ci il tarixdən 30 aprel 2022-ci il tarixədək ərizə ilə Naxçıvan Dövlət Universitetində yaradılmış sənəd qəbulu komissiyasına müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

•abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış;

•şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);

•tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);

•doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;

•nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);

•uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);

•oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;

•evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;

•rəngli fotoşəkil (baş geyimsiz, anfas) – 6 ədəd 3×4 sm ölçüdə və 2 ədəd 4.5×6 sm ölçüdə;

•18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;

•elektrokardioqramma;

•qanın ümumi analizi, qan qrupu və rezus-faktor;

•qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;

•qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;

•sidiyin ümumi analizi;

•psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.

***Qeyd:***

•Namizədlər hər hansı səbəbdən Hərbi tibb ixtisasında təhsil almaqdan imtina etdikləri halda, Naxçıvan Dövlət Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.

•Naxçıvan Dövlət Universitetinin Hərbi tibb ixtisasına keçirilən müsabiqədən sonra bu ixtisas üzrə boş yerlər qalarsa, bu yerlərin Azərbaycan Tibb Universitetinin müvafiq ixtisasına sənəd vermiş, həkim komissiyasından keçmiş və müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər.

### Naxçıvan Dövlət Universitetinin Hərbi tibb ixtisasına qəbul aşağıdakı qaydada həyata keçirilir

Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Naxçıvan Dövlət Universitetinin Hərbi tibb ixtisası üçün keçiriləcək qəbul imtahanına hərbi həkim komissiyasında müayinədən müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Müraciət edən şəxslərin məhkumluğu barədə arayışın alınması fakültə dekanlığının sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı IV ixtisas qrupunun fənləri üzrə Azərbaycan dilində keçirilir.

Namizədlər Hərbi tibb ixtisasına Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələri əsasında qəbul edilirlər.

Hərbi tibb ixtisası üzrə qəbul olmuş şəxslər 4-cü kursu bitirdikdən sonra hərbi andı qəbul edir və bütün növ təminatlarla (geyim, qida və sair) təmin edilirlər. Hərbi tibb ixtisasına qəbul olmuş şəxslər 4-cü kursu bitirənədək Naxçıvan Dövlət Universitetində və kliniki bazalarda, son 2 ili isə birbaşa Hərbi hospitalda və hərbi şəraitdə təhsil alırlar. Hərbi tibb ixtisası üzrə qəbul olmuş şəxslər təhsil müddətində müəyyən edilmiş məbləğdə müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Sənədlər Naxçıvan Dövlət Universitetində yaradılmış komissiya tərəfindən qəbul olunur (Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012, Naxçıvan Dövlət Universiteti).

Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcək.

***Əlavə məlumat Naxçıvan Dövlət Universitetinin internet saytında (www.ndu.edu.az) yerləşdiriləcək.***

***Əlaqə: Telefon: (+99436) 544-08-61 (2700), (+99450) 300-42-80***
***Faks: (+99436) 545-72-88***
***E-poçt: info@ndu.edu.az; admin@ndu.edu.az***

***İtmişdir***

Şərur rayonu, Oğlanqala kəndində yaşamış Şıxəliyeva Mirvari Xaliq qızının adına olan JN-0011 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000,***
***Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Güntac Şahməmmədli**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 360**